**AZƏRBAYCAN RESPUBLİKASI TƏHSİL NAZİRLİYİ**
**AZƏRBAYCAN DÖVLƏT MƏDƏNİYYƏT VƏ İNCƏSƏNƏT UNİVERSİTETİ**

**Təsdiq edirəm**
**ADMİU-nun rektoru**
**________________**
**professor C.Mahmudova**
**"26" "may" 2021-ci il**

**SƏNƏTƏ APARAN YOL BİZDƏN KEÇİR**

**"Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın icrası ilə əlaqədar Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin 2021-2025-ci illər üçün**

# STRATEJİ İNKİŞAF PLANI

**ADMİU-nun Elmi Şurasının**
**"26" "may" 2021-ci il tarixli iclasında**
**7 saylı protokolla təsdiq edilmişdir**

**BAKI – 2021**

## MÜNDƏRİCAT

**I. BİZ KİMİK? ............................................................ 3**

ADMİU haqqında ............................................................ 3

Fəaliyyət dairəmiz ............................................................ 4

SWOT təhlil ............................................................ 7

**II. MİSSİYA, GƏLƏCƏYƏ BAXIŞ VƏ ƏSAS DƏYƏRLƏR ............................................................ 9**

Missiya ............................................................ 9

Gələcəyə baxış ............................................................ 9

Dəyərlər ............................................................ 9

**III. STRATEJİ İNKİŞAF PLANININ ƏSASLARI ............................................................ 10**

1.1. Hüquqi-normativ əsaslar ............................................................ 10

1.2. Strateji İnkişaf Planının konseptual prinsipləri ............................................................ 10

1.3. Prioritetlər ............................................................ 10

1.4. 2016-2020-ci illər üçün ADMİU-nun İnkişaf Strategiyasının dəyərləndirilməsi ............................................................ 11

1.5 Strateji İnkişaf Planının məqsəd və vəzifələri ............................................................ 12

1.6. ADMİU-nun 2021-2025-ci illər üçün Strateji İnkişaf Planı ............................................................ 13

**IV. GÖZLƏNİLƏN NƏTİCƏLƏR ............................................................ 17**

# I. BİZ KİMİK?

## ADMİU haqqında

Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti Respublikanın xüsusi qabiliyyət tələb edən ali məktəbləri arasında özünəməxsus yer tutur.

Universitet 1923-cü ildə Azərbaycan Maarif Komissarlığının qərarı ilə təsis edilmiş Bakı Teatr Məktəbinin əsasında yaradılıb. Milanda təhsil almış opera sənətimizin ilk professional müğənnisi, SSRİ xalq artisti Şövkət Məmmədovanın təşəbbüsü ilə yaradılmış bu sənət ocağı 100 il ərzində böyük inkişaf yolu keçib.

İlk illərdən başlayaraq Bakı Teatr Məktəbinə dərs deməyə Azərbaycanın görkəmli ziyalıları Əbdürrəhim bəy Haqverdiyev, Cəfər Cabbarlı, Hüseyn Cavid, Abbas Mirzə Şərifzadə, Ülvi Rəcəb, Mirseyfəddin Kirmanşahlı, Rza Sarabski, Moskva, Leninqrad və digər şəhərlərdən dəvət edilən Aleksandr Milovanov, Aleksandr Tuqanov, Danil Danilov kimi sənət adamları və mütəxəssislər pedaqoji fəaliyyətə cəlb edilib.

Bakı Teatr Məktəbinin ilk məzunları içərisində Fatma Qədri, Rza Əfqanlı, Şüa Şeyxov, Hacıməmməd Qafqazlı, Əfrasiyab Bədəlbəyli, Ələsgər Ələkbərov, Ələsgər Şərifov, Gülxar Həsənova və başqa tanınmış sənətkarlar olub.

Bakı Teatr Məktəbi təkcə Azərbaycan deyil, digər Qafqaz respublikaları, Qazaxıstan, Özbəkistan, Türkmənistan, Dağıstan və Krım üçün də aktyor və rejissor kadrları hazırlayırdı. Bu kadrlardan görkəmli özbək aktyorları SSRİ xalq artisti H.Nəsirova, N.Əliyeva, Z.Kabulov, X.Xocayev, S.Curabayev, Q.Yaqubov, məşhur türkmən aktyoru və rejissoru A. Karlıyev və başqalarını qeyd etmək olar.

1945-ci ildə Bakı Teatr Məktəbinin bazasında Teatr İnstitutu yaradılıb. Teatr İnstitutunun ilk məzunları arasında Leyla Bədirbəyli, Məlik Dadaşov, Nəcibə Məlikova, Müxlis Cənizadə, Rauf Kazımovski, Arif Babayev, Kamil Rüstəmbəyov və başqa tanınmış sənət xadimləri var idi. 1962-ci ildə Teatr İnstitutunun nəzdində Tədris Teatrı yaradılıb. Tədris Teatrının spesifik xüsusiyyəti ondan ibarətdir ki, o yarandığı gündən indiyədək sənət laboratoriyası funksiyasını yerinə yetirir. 1968-ci ildə isə Azərbaycanda ilk dəfə ali təhsil müəssisəsində səsyazma studiyası fəaliyyət göstərməyə başladı. Sözügedən studiya Mehdi Məmmədov, Adil İsgəndərov, Rza Təhmasib və Müxlis Cənizadə kimi sənətkarların rəhbərliyi ilə tələbələr üçün təcrübə meydanına çevrilmişdir.

1968-ci ildən Azərbaycan Dövlət İncəsənət İnstitutu, 1991-ci ildən Azərbaycan Dövlət İncəsənət Universiteti, 1993-cü ildən isə Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti adlanan bu ali məktəbdə ötən illər ərzində təkcə teatr üçün deyil, kino sənəti, musiqi, rəssamlıq, mədəni maarif, kütləvi tamaşalar rejissorluğu, kitabşünaslıq, müzeyşünaslıq, turizm,

sosial iş, sosialogiya və digər sahələr üçün də kadr hazırlığı aparılmağa başladı.

Musiqi fənləri görkəmli bəstəkar və ifaçılar – Danil Danilov, Aleksandr Milovanov, Şəfiqə Axundova, Niyazi, Gülarə Əliyeva, Rəhilə Cabbarova, Nailə Kərimova, Qulu Əsgərov, Lütfiyar İmanov, Hacı Xanməmmədov, Mobil Əhmədov, Yalçın Rzazadə, Canəli Əkbərov və başqaları tərəfindən tədris edilib.

1962-2000-ci ilə qədər respublikada ali rəssamlıq təhsili verən yeganə tədris ocağı Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universiteti olub. Tələbələrə Azərbaycanın görkəmli sənətkarları – Xalq rəssamları Tahir Salahov, Mikayıl Abdullayev, Toğrul Nərimanbəyov, Lətif Kərimov, Böyükağa Mirzəzadə, Nadir Qasımov, Nadir Əbdürrəhmanov, Yusif Hüseynov, Tokay Məmmədov, Ömər Eldarov, Mirəli Mirqasımov, Fuad Salayev, Natiq Əliyev, Xanlar Əhmədov, Arif Əziz dərs demişlər.

Bu gün Azərbaycanın teatr, kino, rəssamlıq sahəsində tanınan sənətkarların böyük qismi də, demək olar ki, ADMİU-nun məzunu olub.

Adları çəkilən sənətkarlardan başqa, müxtəlif illərdə Universitetdə Adil İsgəndərov, Məhərrəm Haşımov, Mehdi Məmmədov, Rza Təhmasib, Zəfər Nemətov, Ağakişi Kazımov, Eldar Quliyev, Tofiq İsmayılov, Yalçın Əfəndiyev, aktyorlardan Hacağa Abbasov, Kazım Ziya, İsmayıl Dağıstanlı, Müxlis Cənizadə, Nəsir Sadıqzadə, Əjdər Sultanov, Əli Zeynalov, Həsən Turabov, Amaliya Pənahova, Səməndər Rzayev, Hamlet Xanızadə, Mikayıl Mirzə, Fuad Poladov, nəzəriyyəçi alimlər Mikayıl Rəfili, Əli Sultanlı, Feyzulla Qasımzadə, Cəfər Cəfərov, Əbdülvahab Salamzadə, Kərim Kərimov, Məmmədağa Tərlanov, Cəmilə Həsənzadə, İqrar Əliyev, Əkbər Ağayev, Turan Cavid, Adil Babayev, Cabir Səfərov, Mahmud Allahverdiyev, Adilə İsmayılova, Ədilə Əliyeva, İnqilab Kərimov və başqaları dərs deyiblər.

Hazırda Universitetdə 26 professor, 83 dosent, 42 fəlsəfə doktoru, 19 Xalq artisti, 2 Xalq rəssamı, 12 Əməkdar incəsənət xadimi, 29 Əməkdar artist, 5 Əməkdar rəssam, 7 Əməkdar müəllim, 1 Əməkdar jurnalist, 10 Əməkdar mədəniyyət işçisi yüksəkixtisaslı kadr hazırlığında iştirak edir.

Yazılanlar keçdiyimiz şərəfli yolun qısa xülasəsidir, bu gün isə biz artıq Avropa İncəsənət Universitetləri Liqasının tamhüquqlu üzvü kimi respublikada mədəniyyət və incəsənət sahəsində diplomları beynəlxalq aləmdə tanınan yeganə universitetik.

## Fəaliyyət dairəmiz

**Təhsil.** ADMİU orta ixtisas, bakalavr, magistr (o cümlədən MBA), doktorantura, əlavə təhsil proqramları üzrə kadrlar hazırlanır. Universitetdə tədris 3 dildə – Azərbaycan, rus və ingilis dillərində aparılır. Hazırda ADMİU-da **5 fakültə, 21 kafedra fəaliyyət göstərir.** Universitetin bakalavriat səviyyəsində 23 ixtisas, 17 ixtisaslaşma, magistratura səviyyəsində 20

ixtisas, 47 ixtisaslaşma üzrə kadr hazırlığı həyata keçirilir. Universitetdə həmçinin "İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi", "Teatr sənəti" istiqamətləri üzrə elmlər doktoru proqramı, "İncəsənətin nəzəriyyəsi, təhlili və tənqidi", "Kino, tele və digər ekran sənətləri", "Teatr sənəti", "Təsviri sənət", "Dekorativ tətbiqi sənət", "Musiqi sənəti", "Muzeyşünaslıq" istiqamətləri üzrə fəlsəfə doktoru proqramları həyata keçirilir.

"E-universitet" layihəsi əsasında ADMİU-da tədrisin təşkili prosesi tamamilə elektronlaşdırılmışdır.

Universitet nüfuzlu xarici sənət məktəbləri ilə tələbə və müəllim mübadilə proqramlarını həyata keçirir. ADMİU-da təhsilin keyfiyyətini artırmaq məqsədilə tədris plan və proqramlarının təkmilləşdirilməsinə, tədrisdə müasir texnologiyalardan istifadə və professor-müəllim heyətinin peşə bacarıqlarının artırılmasına xüsusi əhəmiyyət verilir. Təhsil standartları üzrə tədris proqramlarının tərtibi zamanı əmək bazarı nümayəndələrinin, məzunların və tələbələrin təklifləri nəzərə alınır.

**Yaradıcılıq.** ADMİU respublikada mədəniyyət və incəsənətin bütün sahələri üzrə xüsusi qabiliyyət tələb edən ixtisaslarda peşəkar kadrlar hazırlayan ali təhsil ocağıdır.

Bu baxımdan, ADMİU-nun xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə kadr hazırlayan kafedraların professor-müəllim heyəti dərs deməklə yanaşı, ixtisaslara müvafiq olaraq hər il yaradıcılıq-ifa və ya tədris-metodiki iş yerinə yetirir. Görülən işlərin vəziyyəti ADMİU-nun Bədii şurası, Elmi-metodiki şurada müzakirə edilir. Yerinə yetirilmiş yaradıcılıq-ifa işləri ilin sonunda ixtisasa görə dinləmə, baxış formatında kollektivə təqdim edilir.

**Tədqiqat**. ADMİU-da elmi tədqiqatlar, əsasən, nəzəri kafedralarda həyata keçirilir. Universitetin "ADMİU-nun Elmi əsərləri" və "Mədəniyyət dünyası" elmi jurnalları mövcuddur. Professor-müəllim heyətinin əsərləri ERIH Plus, Web of Science, Crossref, EBSCO, Scopus kimi nüfuzlu elmi bazalara daxil olan nəşrlərdə çap edilir. ADMİU-da tədqiqat potensialını artırmaq məqsədilə nüfuzlu nəşrlərdə elmi əsərlərin dərcinə, elmi-tədqiqat qrant layihələrinin həyata keçirilməsinə, magistratura və doktorantura təhsilinin inkişaf etdirilməsinə diqqət verilir.

Azərbaycan dilində mədəniyyət və incəsənətlə bağlı materialların kifayət qədər olmaması ilə əlaqədar universitetdə elmi ədəbiyyat, dərslik və dərs vəsaitlərinin hazırlanmasına və tərcüməsinə də xüsusi önəm verilir.

**Sosial xidmət**. ADMİU-də fəaliyyət göstərən Tələbə Elmi-Yaradıcılıq Cəmiyyəti, Tələbə Gənclər Təşkilatı, Tələbə Həmkarlar İttifaqı Komitəsi və digər tələbə təşkilatları hər il müxtəlif sosial layihələr həyata keçirir.

Universitetin Sosial-mədəni fəaliyyət kafedrası əlilliyi olan şəxslərin və tələbələrin cəmiyyətə inteqrasiyası, onlar üçün bərabər təhsil imkanlarının yaradılması məqsədilə mütəmadiən beynəlxalq və respublika miqyaslı tədbirlər və layihələr həyata keçirir, "Əsa"

teatrının fəaliyyətinə dəstək verir.

ADMİU ayrı-ayrı sosial problemlərlə bağlı QHT-lərlə əməkdaşlıq çərçivəsində maaarifləndirmə tədbirləri keçirir.

**Resurslar**

**İnsan resursları.** Mədəniyyət və incəsənət sahəsində Azərbaycanın bir sıra tanınmış aktyor, rejissor, operator, rəssam, dizayner, müğənni və musiqiçi, teatrşünas və sənətşünasları ADMİU-da elmi-pedaqoji fəaliyyətə cəlb edilmişdir. Universitet əməkdaşlarının peşə bacarıqlarının təkmilləşdirilməsinə xüsusi əhəmiyyət verərək ilboyu müxtəlif seminarlar, təlimlər, qış və yay məktəbləri təşkil edir. Bundan başqa, hər il professor-müəllim heyəti yaxın və uzaq xaricdə nüfuzlu xarici universitetlərlə təcrübə mübadiləsi proqramlarında, festivallarda, sərgilərdə, müsabiqələrdə iştirak edir.

**İnformasiya resursları.** ADMİU-nun "www.admiu.edu.az" ünvanlı İnternet saytı mövcuddur. Bundan əlavə, Universitet aşağıdakı sosial şəbəkə səhifələrində də aktiv şəkildə təmsil olunur.

Facebook: Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin rəsmi səhifəsi – https://www.facebook.com/admiuresmi;

Instagram: Azerbaijan State University Culture and Arts – https://www.instagram.com/admiuresmi/;

YouTube: ADMİU TV – https://www.youtube.com/@admiutv3223;

X hesabı: Audiovizual Sənətlər Fakültəsi – @admiuvizual;

Instagram hesabı: Təsviri Sənət Kafedrası (admiu.tesviri.senet) – https://www.instagram.com/admiu.tesviri.senet?igsh=eTJkdHhranA2eHQ0.

**Beynəlmiləlləşmə.** Professor-müəllim heyəti və tələbələr beynəlxalq akademik mübadilə proqramlarında iştirak edir. Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə yaxın və uzaq xaricdə kadr hazırlayan mədəniyyət və incəsənət yönümlü bir sıra universitetlər ilə ikili diplom və ortaq layihələr həyata keçirilir.

**Maliyyə resursları.** ADMİU-nun maliyyə resursları üç əsas mənbədən formalaşır:

1) Dövlət sifarişli tələbələr üçün dövlətin ödədiyi təhsil haqları;

2) Ödənişli əsaslarla təhsil alan tələbələrin ödədiyi təhsil haqları;

3) Qanunla nəzərdə tutulmuş digər gəlirlər.

**İnfrastruktur.** ADMİU-nun Bakı şəhərində yerləşən 2 tədris binası, yeməkxanaları, xüsusi avadanlıqla təmin olunmuş səhnəli otaqları, "Tədrisfilm" studiyası, Televiziya və kino tədris studiyası, rəngkarlıq, qrafika, dizayn, bədii toxuculuq emalatxanaları var. Universitetin əsas tədris binasında 2 tamaşa zalı və sərgi salonu mövcuddur.

11 iyul 2020-ci ildən Bakı Humanitar Kolleci Azərbaycan Dövlət Mədəniyyət və İncəsənət Universitetinin nəzdində fəaliyyət götərir. Kollec mədəniyyət, incəsənət və təhsil ixtisasları üzrə subbakalavr səviyyəsində kadr hazırlığı aparır.

**"SWOT" təhlili**

**Güclü tərəflər**

- Ölkənin zəngin təcrübəyə və ənənələrə malik, ən qədim və ən nüfuzlu mədəniyyət və incəsənət sahəsində kadr hazırlayan təhsil ocağı;
- Xüsusi qabiliyyət tələb edən ixtisas sahələri üzrə geniş spektrli akademik proqramlar;
- Respublikada məşhur və uğur qazanmış mədəniyyət və incəsənət xadimləri olan məzunlar;
- Professor-müəllim heyəti arasında tanınmış sənət adamlarının və alimlərin mövcudluğu;
- Avropa İncəsənət Universitetləri Liqasının tamhüquqlu üzvü kimi respublikada mədəniyyət və incəsənət sahəsində diplomları beynəlxalq aləmdə tanınan yeganə universitet.

**İmkanlar**

- Universitetdə kadr hazırlığı aparılan bütün ixtisaslar üzrə təhsilin davamlı inkişafı üçün dövlət tərəfindən yaradılan şərait və yeni layihələr;
- Xarici tərəfdaş universitetlərin birgə kadr hazırlığında maraqlı olması;
- Beynəlxalq proqramlar və qrant müsabiqələrində iştirak imkanları;
- Beynəlxalq və ölkəmiqyaslı müxtəlif teatr, kino və musiqi festivallarında, sərgi, konsert və tamaşalarla universiteti təbliğ etmək imkanı;

**Zəif tərəflər**

- Auditoriya çatışmazlığı, kafedraların, tədris otaqlarının, yaradıcılıq studiyaları və emalatxanaların maddi-texniki cəhətdən zəif təchiz olunması;
- Xüsusi qabiliyyət tələb edən ixtisasların tədrisi üçün müasir texniki avadanlığın azlığı;
- Akademik heyətin tərkibində təqaüd yaşlı əməkdaşların çox olması;
- Xarici dillərdə qəbul aparılan tədris proqramlarının azlığı;
- Əcnəbi tələbələrin azlığı;
- Universitetin İT infrastrukturunun müasir tələblərə cavab verməməsi;
- Tələbə yataqxanasının olmaması;
- PR, marketinq və kommunikasiya strategiyasının zəif olması;
- Tibb məntəqəsinin olmaması.

**Təhdidlər**

• Gənc ixtisaslı kadrların akademik və elmi sahələrdə fəaliyyətə az maraq göstərməsi;

• Xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə kadr hazırlayan ali təhsil müəssisələri arasında sağlam rəqabətin daha da gücləndirilməsi;

• Əmək bazarında mədəniyyət və incəsənət sahəsində peşə ixtisasları üzrə ali təhsilli mütəxəssislərin az olması;

• Məzunların ixtisas üzrə işlə təmin olunmasına işəgötürənlərin marağının arzuolunan səviyyədə olmaması;

• Respublikada fəaliyyət göstərən mədəniyyət müəssisələri ilə əlaqələrin zəifliyi;

• Pandemiya dövründə xüsusi qabiliyyət tələb edən ixtisaslar üzrə qabiliyyət imtahanlarının keçirilməməsi (aktyorluq, musiqi, rəssamlıq və s.) səbəbindən müvafiq ixtisaslara aşağı hazırlıq səviyyəsinə malik abituriyentlərin qəbul olunması;

• Onlayn təhsillə bağlı meydana çıxan problemlər;

• Tədris prosesinin müasirləşdirilməsi və təkmilləşdirilməsi məqsədi ilə modul proqramlarından istifadə edilməməsi.

## II. MİSSİYA, GƏLƏCƏYƏ BAXIŞ VƏ ƏSAS DƏYƏRLƏR

### Missiya

Təlimin qabaqcıl innovasiya texnologiyalarını tədris prosesi ilə əlaqələndirməklə mədəniyyət və incəsənət sahələri üzrə respublikada və xaricdə tanınan, müasir dövrün tələblərinə cavab verən rəqabətdavamlı yüksəkixtisaslı peşəkar kadr hazırlığı sistemini formalaşdırmaq.

### Gələcəyə baxış

Respublikada mədəniyyət və incəsənət sahələri üzrə kadr hazırlayan ali məktəblər arasında liderliyə nail olmaq, bu sahədə beynəlxalq səviyyəli platformaya çevrilmək.

### Əsas dəyərlər

- **Kollegiallıq:** obyektivlik, səmimilik və etibarlılıq kimi prinsiplərə söykənərək həmkarlara, təhsilalanlara və bütövlükdə, kollektivə hörmətlə yanaşmaq;
- **Seçim azadlığı:** müasirliyə, innovativliyə, kollektiv və fərdi yaradıcılığa əsaslanan bilik qazanmaq üçün ideya azadlığını dəstəkləmək;
- **Mükəmməllik:** qətiyyətə əsaslanan şəffaf idarəçiliyi, tədrisi, elmi və bədii yaradıcılığı təşviq və inkişaf etdirmək;
- **İnklüzivlik və müxtəliflik:** inklüzivliyi və multikultural müxtəlifliyi təmin etmək.

ADMİU-nun Strateji İnkişaf Planı (bundan sonra – SİP) "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın tələblərinə müvafiq formalaşdırılıb və onun reallaşdırılması üçün tərtib olunan fəaliyyət planı ali məktəbin prioritetləri və vəzifələri nəzərə alınmaqla hazırlanıb.

## III. İNKİŞAF STRATEGİYASININ ƏSASLARI

### 1.1. Hüquqi-normativ əsaslar

1. Azərbaycan Respublikasının "Təhsil haqqında" 2009-cu il 19 iyun tarixli 833-IIIQ nömrəli Qanunu
2. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan 2020: gələcəyə baxış" İnkişaf konsepsiyasının təsdiq edilməsi haqqında 2012-ci il 29 dekabr tarixli Fərmanı
3. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası" barədə 2013-cü il 24 oktyabr tarixli Sərəncamı
4. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasında təhsilin inkişafı üzrə Dövlət Strategiyası"nın həyata keçirilməsi ilə bağlı Fəaliyyət Planının təsdiq edilməsi haqqında 2015-ci il 19 yanvar tarixli 995 nömrəli Sərəncamı
5. Azərbaycan Respublikasının "Mədəniyyət haqqında" 2012-ci il 21 dekabr 506-IVQ nömrəli Qanunu
6. Azərbaycan Respublikası Prezidentinin "Azərbaycan Respublikasının Mədəniyyət Konsepsiyası"nın təsdiq edilməsi barədə 2014-cü il 14 fevral tarixli 273 nömrəli Sərəncamı.

### 1.2. Strateji İnkişaf Planının konseptual prinsipləri

Respublika Prezidetinin, Nazirlər Kabinetinin, Təhsil Nazirliyinin hüquqi-normativ sənədlərinin müddəalarına əsaslanaraq, ADMİU-nun Strateji İnkişaf Planının konseptual prinsipləri aşağıdakı kimi müəyyənləşdirilir:

- Maddi və mənəvi dəyərlərin qorunmasında və təbliğində mədəniyyətin aparıcı rolunun tanınması;
- ADMİU-nun təhsil, elm, yaradıcılıq-ifa sahələrində respublikanın mədəniyyət və incəsənət təmayüllü ali məktəbləri arasında liderlik mövqeyinə nail olması;
- Zəngin maddi-mədəni irsin və mənəvi dəyərlərin, dinamik inkişafda olan müasir mədəniyyətin təhsil vasitəsi ilə gənc nəslə çatdırılması.

Universitet fəaliyyətini öz Nizamnaməsinə əsasən həyata keçirir.

### 1.3. Prioritetlər:

ADMİU-nun 2021-2025-ci illər üzrə Strateji İnkişaf Planının prioritetləri aşağıdakılardan ibarətdir:

- Universitetin təhsil fəaliyyətinin milli və beynəlxalq tələblərə müvafiq modernləşdirilməsi;
- Elmi-tədqiqat fəaliyyətinin effektivliyinin artırılması, elmi nəticələrin tədrisin keyfiyyətinin yüksəldilməsinə, Azərbaycan mədəniyyəti və incəsənətinin inkişafına yönəldilməsi;
- Universitetin mədəniyyət və incəsənət üzrə beynəlxalq təhsil və elm məkanına inteqrasiyası;
- Universitetin elmi-pedaqoji, yaradıcı, kadr və maddi-texniki resurslarının inkişafı;
- Yerli və beynəlxalq proqram və layihələrdə iştirakın təmin olunması.

### 1.4. 2016-2020-ci illər üçün ADMİU-nun İnkişaf Strategiyasının dəyərləndirilməsi

Təhsil prosesinin intensiv olaraq müasirləşdirilməsi ilə xarakterizə olunan 2016-2020-ci illər ərzində ADMİU-da aşağıdakı strateji məsələlər həll edilmişdir:

- Kafedralar və fakültələrarası birgə yaradıcılıq-ifa işlərinin aparılması təmin olunmuşdur;
- Aralıq imtahanları və yekun dövlət attestasiyası zamanı daxili və ictimai nəzarətin effektiv təşkili nəticəsində daha da şəffaf keçirilməsinə nail olunmuşdur;
- İxtisaslar üzrə tədris planlarının monitorinqi keçirilmiş və varislik təmin edilməklə müasirləşdirilmişdir;
- Tədrisin səmərə və keyfiyyətinin yüksəldilməsi ilə əlaqədar struktur dəyişiklikləri edilmiş, yaxın ixtisaslar üzrə kadr hazırlığı aparan kafedralar birləşdirilmişdir;
- Laborant, tyutor, konsertmeyster və kitabxana işçilərinin attestasiyası keçirilmişdir;
- Tədris prosesinin səviyyəsinin yüksəldilməsi məqsədi ilə təhsilalanların istifadəsi üçün avadanlıq, alət, material və ləvazimət alınmışdır;
- Xarici ölkələrin müvafiq ixtisaslar üzrə təhsil verən ali məktəblərinin professor-müəllim heyəti və tələbələri ilə birlikdə onlayn qaydada açıq dəsrlər, ustad dərsləri, elmi seminar və konfranslar keçirilmişdir;
- Əmək bazarının tələblərinə uyğun yeni ixtisas və ixtisaslaşmalar (magistratura səviyyəsi üçün Sosial-mədəni sahələrdə xidmətin təşkili, Turizm bələdçisi, Turizm və sosial-mədəni servis xidməti, Gənclərlə iş, Muzey və qalereya sahəsi üzrə menecment, Musiqi sahəsi üzrə menecment, Kino və televiziya sahəsi üzrə menecment, Teatr sahəsi üzrə menecment, Animasiya və kompüter qrafikası, bakalavr səviyyəsi üçün Animasiya və kompüter qrafikası ixtisaslaşması) üzrə kadr hazırlığına başlanmışdır;

- Xaricdə və respublikada təhsil almış istedadlı gənc məzunlar ADMİU-da fəaliyyətə dəvət edilmişlər;
- ADMİU-da kredit sistemli tədrisin təşkilində işin təkmilləşdirilməsi məqsədilə tyutor (akademik məsləhətçi) təlim kursları təşkil olunmuşdur;
- Kurmanqazı adına Qazax Milli Konservatoriyası və Qazax Milli Pedaqoji Qızlar Universiteti ilə "Musiqi müəllimliyi" ixtisası üzrə müştərək tədris planlarının hazırlanması;
- T. Jurgenev adına Qazax Milli İncəsənət Akademiyası ilə magistratura səviyyəsində "Teatrşünaslıq" və "Kinoşünaslıq" ixtisasları üzrə müştərək tədris planlarının hazırlanması;
- Pandemiya şəraiti ilə əlaqədar İnkişaf Stratgiyasında qoyulan və icrası ləngiyən bir sıra məsələlər növbəti SİP-ə daxil edilmişdir.

**1.5 Strateji İnkişaf Planının məqsəd və vəzifələri:**

SİP-in əsas məqsədi müasir beynəlxalq tələblərə cavab verən keyfiyyətli təhsil vasitəsi ilə mədəniyyət və incəsənəti inkişaf etdirmək bacarığına malik milli kadrların yetişdirilməsidir.

- Universitet təhsilinin Avropa elm və təhsil məkanına inteqrasiyası və təhsilin məzmununun Boloniya prosesinin prinsiplərinə daha da uyğun qurulması;
- Universitetin rəqabət qabiliyyətliliyinin təmin edilməsi;
- Müasir dövrdə mədəniyyət və incəsənətin inkişaf tələblərinə uyğun ali təhsilli kadrlara olan tələbatın ödənilməsi;
- Əhalinin müasir tələblərə cavab verən fasiləsiz universitet təhsili almaq imkanlarının təmin edilməsi üçün şəraitin yaradılması;
- ADMİU-nun bazasında təhsilin ardıcıllığı baxımından kollec – universitet (bakalavriat – magistratura – doktorantura) Təhsil Kompleksinin formalaşdırılması;
- Mədəniyyət və incəsənət təmayüllü ixtisaslar üzrə ikili diplom proqramları layihəsinin reallaşdırılmasına nail olmaq.

Bunun üçün aşağıdakı vəzifələrin həll edilməsi tələb olunur:

- Əldə etdikləri bilik, bacarıq və vərdişləri tətbiq etməyi bacaran, mədəniyyət və incəsənətin inkişafına öz töhfəsini verə bilən, daima öz üzərində çalışan və ixtisasını artıran, cəmiyyətdə baş verən dəyişikliklərə və müasir tələbatlara çevik reaksiya verən mədəniyyət və incəsənət sahələri üzrə yüksək ixtisaslı mütəxəssislərin hazırlanması;

- Cəmiyyətin və şəxsiyyətin tələbatlarına uyğun, yüksək keyfiyyətli təlim və tədris prosesinin təmin edilməsi;
- Tədris prosesinin və təhsil proqramlarının müasir təhsilin tələblərinə müvafiq yenilənməsi və təkmilləşdirilməsi sisteminin formalaşdırılması;
- Universitetin Avropa Vahid Təhsil Məkanına daxil olması;
- Respublikanın və xarici ölkələrin mədəniyyət və incəsənət sahələri üzrə kadr hazırlığı aparan ali məktəbləri ilə əlaqələrin genişləndirilməsi;
- elm, təhsil və yaradıcılıq sahələrində məhsuldar beynəlxalq əməkdaşlığın inkişaf etdirilməsi.

## 1.6. ADMİU-nun 2021-2025-ci illər üzrə Strateji istiqamət və hədəflər

| **Birinci strateji istiqamət: Səriştəyə əsaslanan şəxsiyyətyönümlü təhsil məzmununun yaradılması** |
|---|
| **HƏDƏFLƏR** |
| • Müasir əmək bazarının tələbatı nəzərə alınaraq beynəlxalq təsnifata uyğun istiqamət və ixtisaslar üzrə beynəlxalq standartlar səviyyəsində kadr hazırlığının həyata keçirilməsi |
| • Müasir tələblərə cavab verən bacarıq, səriştə və nəticə yönümlü təhsil proqramlarının hazırlanması |
| • Dövlət Təhsil Standartalarının yüksək elmi-pedaqoji səviyyədə icrasını təmin etmək məqsədilə tədris-metodiki və elmi ədəbiyyatın keyfiyyət və kəmiyyətinin yüksəldilməsi |
| • Davamlı təhsil konsepsiyasının reallaşdırılması üçün təhsil proqramlarında varisliyin təmin edilməsi |
| • İxtisas üzrə təhsil standartları və tədris planlarının işlənilməsində bütün maraqlı tərəflərlə əməkdaşlıq təcrübəsinin tətbiq edilməsi |
| • İşəgötürənlərin maraqlı tərəf kimi təhsil prosesində təmsilçilik formalarının işlənilib tətbiq edilməsi |
| • Universitetin respublika və dünya təhsil xidmətləri bazarında rəqabətə davamlılılğının artırılması məqsədi ilə təhsil proqramlarının beynəlxalq ekspertiza və akkreditasiyadan keçirilməsi |

| |
|---|
| • Təhsilalanların qabiliyyət və istedadlarını üzə çıxarmağa şərait yaradan festival, sərgi, müsabiqə və konfranslara maraqlı tərəflərin cəlb olunması |
| • Ali təhsilin bakalavr və magistr səviyyələrində nüfuzlu xarici və yerli təhsil müəssisələri ilə ikili diplom əməkdaşlığı istiqamətində işlərin aparılması |
| • ADMİU-nun elmi dərgilərinin Beynəlxalq xülasələndirmə və indeksləmə bazalarına daxil edilməsi istiqamətində işlərin görülməsi |
| **İkinci strateji istiqamət**: **Təhsil sahəsində insan kapitalının inkişafı** |
| **HƏDƏFLƏR** |
| • Xaricdə və respublikada təhsil almış istedadlı gənc məzunların, tanınmış mədəniyyət və incəsənət xadimlərinin, mütəxəssislərin Universitetdə fəaliyyətə cəlb edilməsi |
| • Xarici ölkələrin təhsil müəssisələrində stajkeçmə, ixtisasartırma, magistr və doktorant hazırlığı yolu ilə professor-müəllim heyətinin təkmilləşdirilməsi |
| • Professor-müəllim heyətinin və təhsilalanların xaricdə və respublikada mübadilə proqramlarında fəal iştirakına nail olmaq |
| • Müvafiq ixtisaslar üzrə mütəxəssis bazarının mütəmadi monitorinqinin aparılması və nəticələr əsasında elektron portfolionun yaradılması |
| • Pedaqoji heyətlə əmək münasibətlərinin qurulmasının illik fəaliyyətin keyfiyyət göstəriciləri sisteminin nəticələrinə görə tənzimlənməsi, əmək haqqının differensiallaşmasına keçid |
| **Üçüncü strateji istiqamət**: **Təhsildə şəffaf və səmərəli idarəetmə mexanizmlərinin yaradılması** |
| • İdarəetmənin təkmilləşdirilməsi və səmərəli idarəetmə formalarının təmin edilməsi məqsədilə beynəlxalq təcrübə nəzərə alınmaqla struktur islahatlarının aparılması |
| • Elektron idarəetmə sisteminin təkmilləşdirilməsi (elektron universitet, elektron sənədləşmə) |
| • Universitetin profil və istiqamətinə uyğun əmək bazarı subyektlərinin cari və gələcək tələblərinin sistematik öyrənilməsi və proqnozlaşdırılması. Məzunlarla effektiv işbirliyinin həyata keçirilməsi |
| • Himayəçilər şurasının yaradılması |
| • Təhsilin ictimailəşdirilməsi çağırışlarına müvafiq xüsusi qabiliyyət tələb edən |

| |
|---|
| ixtisaslar üzrə tədrisin nəticələrinin təhlili, ictimai dəyərləndirilməsi məqsədilə tanınmış mədəniyyət, incəsənət xadimlərinin, Mədəniyyət Nazirliyinin nümayəndələrinin və işəgötürənlərin daha çox cəlb edilməsi |
| • Universitetdə keyfiyyət mədəniyyətini formalaşdırmaq, maraqlı tərəflərin ehtiyaclarını və gözləntilərini qarşılamaq, tələbəyönümlü tədris prosesini sistemləşdirmək, strukturlararası koordinasiya və hesabatlılığı təmin etmək məqsədilə, keyfiyyət təminatı siyasətinin formalaşdırmaq, keyfiyyət təminatı və strateji planlama departamenti yaratmaq |
| **Dördüncü strateji istiqamət: müasir tələblərə uyğun və ömürboyu təhsili təmin edən təhsil infrastrukturunun yaradılması** |
| **HƏDƏFLƏR** |
| • Təhsil prosesinin informasiya-kommunikasiya texnologiyaları resursları ilə tam təmin edilməsi |
| • Müasir İKT və xüsusi avadanlıqlarla təchiz edilmiş ixtisaslaşmış auditoriyaların – kiçik səhnə, yaradıcılıq emalatxanaların və s. sayının artırılması, səsyazma studiyasının fəaliyyətinin bərpa edilməsi |
| • Universitetin Tədris Teatrının binasında əsaslı təmir-bərpa işlərinin yekunlaşdırılması |
| • ADMİU TV və ADMİU Radio-nun texniki imkanlarından istifadə edərək işinin yenidən qurulması |
| • Universitet kitabxanasının fəaliyyətinin elektron kitabxana sistemi ilə yenidən qurulması, zəruri İKT resursları ilə təmin olunması, mediateka və videoteka fondlarının yaradılması və onlardan geniş istifadənin təmin edilməsi, beynəlxalq kitabxana sistemlərinə çıxışın təmin edilməsi |
| **Beşinci strateji istiqamət: İqtisadi cəhətdən dayanıqlı və dünyanın aparıcı təhsil sistemlərinin standartları ilə eyni səviyyəyə uyğun təhsil sisteminin maliyyələşdirilməsi modelinin qurulması** |
| HƏDƏFLƏR |
| • Universitetdə kadr hazırlığı aparılan ixtisaslar üzrə təhsilin cəlbediciliyini təmin edən fəaliyyət planının hazırlanması |
| • Universitetin profil və fəaliyyət istiqamətinə uyğun təsərrüfat hesablı müəssisələrin təsis edilməsi və onların fəaliyyətindən əldə edilən vəsaitin ADMİU-nun inkişafına yönəldilməsi |

| |
|---|
| • Universitetin maddi-texniki bazasının möhkəmləndirilməsi |
| • Milli və beynəlxalq elm, təhsil və mədəniyyət fondlarının qrant layihələrində fəal iştirakın təmin edilməsi |
| • Universitetin profil və fəaliyyət istiqamətinə uyğun ödənişli əsaslarla həyata keçirilən ixtisasartırma, məsləhət-konsaltinq, teatr-konsert xidmətlər şəbəkəsinin yaradılması |
| • Əmək bazarının maraqlı subyektləri tərəfindən müvafiq ixtisaslar üzrə kadr hazırlığının maliyyələşdirilməsinə nail olunması |
| **Altıncı strateji istiqamət: Beynəlmiləlləşmə. Təhsil, yaradıcılıq və elmin beynəlmiləlləşdirilməsi. ADMİU-nu beynəlxalq əməkdaşlığın fəal iştirakçısına çevrilməsi, strateji təhsil və elmi tərəfdaşlıq əlaqələrinin genişləndirilməsi** |
| HƏDƏFLƏR |
| • Beynəlxalq elmi və təhsil proqramlarının (layihələrin) sayının artırılması |
| • Beynəlxalq təhsil və elmi proqramlarda (layihələrdə) iştirak edən professor-müəllim heyətinin, gənc tədqiqatçıların və tələbələrin sayının artırılması |
| • Xarici dilləri yaxşı bilən elmi-pedaqoji kadrların sayının artırılması |
| • Xarici tərəfdaş universitetlərdə təcrübə keçmiş tələbələrin (bakalavrlar/ magistrantlar/doktorantlar) sayının artırılması |
| • QS reytinqində nüfuzlu universitetlər siyahısına daxil olan universitetlərlə ikili diplom proqramlarının və orada iştirak edən tələbələrin sayının ümumi proqram və tələbə sayındakı payının artırılması |
| • Beynəlxalq Qış və Yay Məktəblərinin təşkilinin təmin edilməsi |
| • Xarici tərəfdaş universitetləri cəlb etməklə keçirilən beynəlxalq konfrans və seminarların sayının artırılması |
| **Yeddinci strateji istiqamət: Sosiallaşma** |
| HƏDƏFLƏR |
| |
| • Universitetin nüfuzunun artırılması istiqamətində tədbirlərin görülməsi, Universitetin ölkəmiqyaslı və beynəlxalq sosial layihələrlə çıxış etməsi |
| • KİV-də ADMİU-nun təhsil, elm və sosial fəaliyyətini, beynəlxalq əməkdaşlığını işıqlandıran materialların sayının artırılması |
| • Ölkədaxili əlaqələrin genişləndirilməsi, ölkənin nüfuzlu elm və təhsil müəssisələri, yaradıcılıq birlikləri, ictimai qurumlarla əməkdaşlıq əlaqələrinin |

| |
|---|
| qurulması, birgə sosial layihələrin sayının artırılması |
| • Universitet əməkdaşlarının ölkədə elmi maarifçilik işində daha fəal iştirakının təmin edilməsi, onların genişmiqyaslı humanitar-sosial proqram və layihələrdə iştirak etməsi üçün şəraitin yaradılması |
| • Universitet professor-müəllim heyətinin ölkə və paytaxtmiqyaslı mədəni, sosial və ekoloji layihələrə könüllü mütəxəssis kimi cəlb olunmasına şəraitin yaradılması |
| • ADMİU alimləri tərəfindən sosioloji tədqiqatların aparılması və ictimaiyyətə təqdim edilməsi |
| • Tərəfdaş qurumlarla birlikdə Universitetdə ölkənin elmi, mədəni, sosial-iqtisadi problemlərinə həsr olunmuş yüksək səviyyəli konfransların, seminarların və digər tədbirlərin keçirilməsi |

## IV. GÖZLƏNİLƏN NƏTİCƏLƏR

- ADMİU-nun ölkəmizdə xüsusi qabiliyyət tələb edən ali təhsil müəssisələri arasında lider ali məktəb kimi gələcək inkişafı;
- Mədəniyyət və incəsənətin müxtəlif sahələri üzrə yüksək ixtisaslı, rəqabətdavamlı professional kadr potensialının yüksəldilməsi;
- Bütün təhsil səviyyələri üzrə əlçatan və yüksək keyfiyyətli təhsil siyasətinin təmin edilməsi;
- Xüsusi qabiliyyət tələb edən incəsənət istiqamətli ali və orta təhsil müəssisələri üçün pedaqoji kadrların yetişdirilməsi;
- ADMİU-nun professor-müəllim heyətinin zamanın və əmək bazarının tələbinə müvafiq yenidən hazırlanması və təkmilləşdirilməsi;
- Əmək bazarı üçün rəqabətədavamlı məzunların yetişdirilməsi;
- ADMİU-nun milli institusional və proqramlar üzrə akkreditasiyasında müsbət nəticələrə nail olunması;
- ADMİU-nun proqramlar üzrə beynəlxalq akkreditasiyasında müsbət nəticələlərin əldə edilməsi;
- ADMİU-nun maddi-texniki və informasiya texnologiyaları bazasının genişləndirilməsi;
- Müasir kitabxana fondunun və elektron kitabxananın təkmilləşdirilməsi;
- Təhsil xidmətlərinin keyfiyyətinə effektiv nəzarət mexanizminin yaradılması;
- Təhsil-yaradıcılıq-elm inteqrasiyasının təmin edilməsi;
- Xarici ölkələrin qabaqcıl təhsil müəssisələrində pedaqoji, yaradıcılıq və elmi təcürbəyə, ixtisasartırma və yenidən hazırlanmaya şəraitin yaradılması;

- Təhsilin idarəedilməsində İKT-yə əsaslanan müasir forma və metodların yaradılması və tətbiqi;
- ADMİU-nun yeni tədris binasının inşa edilməsi;
- ADMİU-nun yataqxanasının qaytarılması;
- ADMİU-nun tədris binalarında sürətli və fasiləsiz İnternet əlaqəsinin təmin edilməsi;
- ADMİU-nun alimlərinin elmi araşdırmalarının nəticələri ilə ictimaiyyətin məlumatlandırılması;
- ADMİU-nun sosial layihələrinin sayının artırılması.